**Hörmətli Sədr, əziz həmkarlar, xanımlar və cənablar!**

Bu mötəbər toplantıda çıxış etmək mənim üçün böyük şərəfdir. Azərbaycan Respublikası adından tədbirin əsas təşkilatçısı olan Türkiyə Respublikasına, eləcə də həmtəşkilatçı ölkələrə dərin təşəkkürümü bildirirəm. Mövzusu “Birlikdə Daha Güclüyük: Ailədən Qaynaqlanan Qlobal Həmrəylik” olan bu yan tədbir zamanımızın ən aktual çağırışlarına cavab kimi böyük əhəmiyyət daşıyır.

**Hörmətli həmkarlar,**

Dünya mürəkkəb və çoxşaxəli böhranlarla üz-üzədir. Silahlı münaqişələr, iqlim dəyişiklikləri, sürətli urbanizasiya və rəqəmsal təhlükələr cəmiyyətlərin sabitliyini sarsıdır.

Belə bir dövrdə ən etibarlı dayağımız heç şübhəsiz ailədir.

Azərbaycan üçün ailə hər zaman yalnız şəxsi həyatın deyil, həm də sosial münasibətlərin, milli həmrəyliyin və ictimai sabitliyin əsas dayağı olmuşdur. Hazırda ölkəmizdə ailə siyasəti dövlətin inkişaf strategiyasının prioritet istiqamətlərindəndir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu sahədə uşaq hüquqlarının müdafiəsi, ailə dəyərlərinin gənclər arasında təbliği, sosial rifahın yüksəldilməsi, məişət zorakılığı ilə mübarizə və zərərli rəqəmsal məzmunlara qarşı tədbirlər kimi məsələləri diqqət mərkəzində saxlayır.

**Son illər mühüm hüquqi islahatlar həyata keçirilmişdir:**

- 2025-ci ildən nikah yaşı yalnız 18-dən başlayır;
- yaxın qan qohumları arasında nikaha məhdudiyyətlər tətbiq edilib;
- erkən evlilik və yetkinlik yaşına çatmayanlarla dini nikah bağlanmasına şərait yaradanlara qarşı inzibati və cinayət məsuliyyəti sərtləşdirilib.

Bu islahatlar ailəni yalnız şəxsi münasibətlərin deyil, həm də insan hüquqlarının, gender bərabərliyinin və sosial rifahın təminatçısı kimi möhkəmləndirir. Erkən nikahların qarşısının alınması qızların təhsil hüququnu qoruyur, qohum nikahlarının məhdudlaşdırılması isə gələcək nəsillərin sağlamlığını təmin edir.

**Hörmətli iştirakçılar,**

Azərbaycan ailə siyasətinə həm milli dəyərlərin qorunması, həm də müasir beynəlxalq standartların tətbiqi prizmasından yanaşır. Biz ailənin hərtərəfli inkişafını cəmiyyətin gələcəyinə qoyulan ən dəyərli sərmayə hesab edirik. Lakin müasir çağırışlar — demoqrafik qeyri-sabitlik, azalan doğum göstəriciləri, valideynlərin iş və ailə həyatını uzlaşdırmaq çətinlikləri, rəqəmsal təhlükələr və sosial bağların zəifləməsi ailə institutunun davamlı dəstəyə ehtiyacını artırır.

Bu baxımdan beynəlxalq əməkdaşlıq həlledici rol oynayır. Azərbaycanda bu ilin iyulunda ilk dəfə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Qadınlar Forumunun qəbul etdiyi Komunike sənədində regionumuzda qadınların ətraf mühit təşəbbüslərinə verdiyi töhfələr yüksək qiymətləndirildi.

Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın və Azərbaycan Respublikasının I Vitseprezidenti xanım Mehriban Əliyevanın dəstəklədiyi Sıfır Tullantı” təşəbbüsü bu mənada yalnız ekoloji layihə deyil, həm də ailə institutunun həmrəylik platforması kimi dəyərlidir.

Eyni zamanda, Azərbaycanın BMT çərçivəsində “ailə dostları” qruplarında fəal iştirakı, Pekin Platformasının 30 illiyi ilə bağlı öhdəliklərini vurğulaması ailə və gender məsələlərinin qlobal gündəliyə inteqrasiyasına töhfə verir.

**Hörmətli həmkarlar,**

Biz hesab edirik ki, ailə məsələləri yalnız milli deyil, həm də beynəlxalq gündəliyin tərkib hissəsi olmalıdır. Bu çərçivədə üç əsas istiqamətdə beynəlxalq əməkdaşlığı vacib hesab edirik.

Bu ilk,növbədə: Sosial həmrəyliyin möhkəmləndirilməsi – milli səviyyədə atılan addımların qlobal miqyasda paylaşılması ola bilər.

Digər bir istiqamət Uşaqların qorunması – xüsusilə rəqəmsal dövrdə onların təhlükəsiz və sağlam mühitdə böyüməsini təmin etməkdir;

Üçüncü isə, Qlobal tərəfdaşlıq – “ailə diplomatiyası” platformalarının qurulması və ən yaxşı təcrübələrin mübadiləsi məsələsidir.

**Hörmətli iştirakçılar,**

Azərbaycan inanır ki, ailəyə göstərilən hər bir dəstək əslində insanlığa edilən xidmətdir. Güclü ailələr güclü icmalar yaradır, güclü icmalar isə sabit dövlətlərə çevrilir və qlobal sabitlik üçün dayanıqlı zəmin formalaşdırır.

Odur ki, Gəlin nu gözəl təşəbbüs ətrafında səylərimizi birləşdirərək ailəni yalnız milli sərhədlərimiz daxilində deyil, həmçinin qlobal həmrəyliyin mərkəzi dayağı kimi qoruyaq.

Uşaqlar üçün təhlükəsiz rəqəmsal mühit yaradaq, valideynlərin yükünü birlikdə azaldaq, gənclərə daha möhkəm sosial dayaqlar təmin edək. Unutmayaq ki, güclü ailələr güclü icmalar, güclü icmalar isə güclü dövlətlərə çevrilərək qlobal sabitliyə təminat yaradır.

**Diqqətinizə görə təşəkkür edirəm!**